# BÖYÜK QƏLƏBƏNİN AÇARI

Görkəmli alim, tanınmış ictimai - siyasi xadim, akadenik, millət vəkili Ziyad Səmədzadənin haqqında söhbət açmaq istədiyimiz 451 səhifəlik bu kitabı rəngli şəkillərlə zəngindir, nəfis tərtibatl, parıltılı kağızda çap olunub və İkinci Cahan savaşının tərkib hissəsi olan Böyük Vətən müharibəsi zamanı Hitler faşizmi üzərində qazanılmış tarixi Qələbənin 70 illiyinə həsr olunub. Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin birgə layihəsi əsasında araya - ərsəyə gələn bu' kitabın hazırlanmasında ayrı - ayrı fədakar şəxslər layihənin rəhbəri Ziyad Səmədzadəyə yardımçı olublar. Əsası odur ki, vahid komanda şəklində çalışan bu insanların çəkdiyi zəhmət səmərəsiz qalmayıb və nəticədə mədəniyyət tariximiz üçün son dərəcə qiymətli bir əsər yaranıb. İnformasiyaların bolluğu və hər bir zəruri detalın yerli - yataqlı işlənməsi baxımından bu toplunu həm də hardasa ensiklopedik məlumat kitabı adldndırmaq mümkündür. Məsələ burasındadır ki, totalitar Sovet rejiminin hökmran olduğu ərazi yer kürəsinin altıda birini tuturdu və bu ərazidə insan hüquqları addımbaşı kobud şəkildə ayaqlanırdı. Mənfur sistemin mahiyyətində subyektiv meyllər dərin kök saldığı üçün əyalətlərdə görülən böyük, əzəmətli işlər hər vasitə ilə ört - basdır edilir və ya Mərkəzin adına yazılırdı. Bu səbəbdən də tarixi gerçəkliyi obyektiv şəkildə araşdırıb haqq - ədalət anlayışını bərpa etmək üçün gecəli - günüzlü arxivlərdə iş aparmaq, konkret sənədlərə, faktlara əsaslanmaq lazım gəlirdi. Ziyad müəllim bu həqiqəti aydın dərk etdiyi üçün görülən əsas işləri bu vacib istiqamətə yönəltməyi lazım bilmişdi. Böyük rus yazıçısı Anton Çexov yazırdı ki, mənim uşaqlığım olmayıb. Bu baxımdan Ziyad müəllimin uşaqlığı da müharibə dövrünə düşüb və kitaba yazdığı ön sözdə o, həmin dövrü belə xatırlayır: "Mən müharibənin dəhşətlərini yaşamış nəslə mənsubam. İndi bizi yaşlı nəsil adlandırırlar. Müharibə yer üzünün bütün uşaqlarına məxsus olan o gözəl, qayğısız, şirin, məsum illəri , o illərin dadını, xoşbəxtliyini bizim nəslin əlindən aldı." (səh.6). Haqqında bəhs etməyə çalışdığımız bu kitab boş yerdən yaranmayıb, çünki böyük Qələbənin 70 illik yubileyindən əvvəl 60-65 illik yubileyləri qeyd olunub və hörmətli akademikimiz Ziyad Səmədzadə də həmin illərdə bekar qalmayıb. Bu haqda onun yazdığı giriş məqaləsində oxuyuruq: "Qələbənin 60 - 65 illiklərinə həsr edilən "Qaliblər" və "Bakı nefti olmadan Qələbə mümkün deyildi" adlı xüsusi buraxılışlarımızın nəşri böyük məmnunluq gətirdi. Həmin nəşrlərdə topladığım materiallar indi hamının etiraf etdiyi bir fikrə gəlməyə, faşizm üzərindəki Qələbənin qazanılmasında Azərbaycanın oynadığı müstəsna rola lazımi dəyərin verilməsinə kömək etdi".(səh.8).

Bir daha xüsusi şəkildə vurğulamağı lazım bilirik ki, adı çəkilən bu monumental kitab Böyük Vətən müharibəsi zamanı qazanılan və bəşəriyyətin xilası ilə nəticələnən tarixi Qələbənin qazanılmasında Bakı neftinin həlledici roluna həsr olunub. Beş il bundan əvvəl Heydər Əliyev Fondunun dəstəyi ilə "Hədəf Bakıdır. Hitler neft uğrundakı döyüşü necə uduzdu" adlı sənədli film çəkildi və Qələbənin 70 illiyinə həsr edildi. Bu sənədli filmdə də qeyd edildiyi kimi Azərbaycandan müharibəyə gedən 700 mindən çox adamın 400 mini ağır, qanlı döyüşlərdə canını qurban verdi. Qələbənin qazanılmasında Bakı neftinin roluna gəldikdə isə kitabın 17 - ci səhifəsində bu barədə oxuyuruq: "Qələbənin qazanılmasında Abşeron nefti əvəzsiz rol oynadı. Böyük Vətən müharibəsi illərində SSRİ - də çıxarılan neftin 75 faizini Bakı verirdi. Faktiki olaraq, bu o deməkdir ki, döyüşlərdə iştirak edən on tankdan yeddisi, on təyyarədən onu Bakı nefti ilə işləyirdi." (səh.17). Kitabda erməni vandallarının zaman - zaman bizə və türklərə qarşı törətdikləri qanlı cinayətlərdən arxiv sənədlərinə istinad etməklə bəhs ollunur. Hələ Birinci Dünya müharibəsi illərində Aram, Dro, Njde və Andronikin başçılıq etdikləri quldur dəstələri daha da azğınlaşaraq Aralıq dənizi, Qara dəniz və Xəzər dənizi arasındakı geniş ərazilərdə yaşayan 2 milyondan artıq dinc əhalini məhv etdilər. Dro və Njde İkinci Dünya müharibəsi zamanı da öz mənfur xislətlərindən əl çəkmədilər. Bu barədə kitabın növbəti səhifəsində oxuyuruq: "Ermənilərin nümayəndələri - Avropa xalqlarının cəlladları olan Dro, Njde və başqa daşnaklar İkinci Dünya müharibəsi illərində İmperiya Baş Təhlükəsizlik İdarəsinin nümayəndələrinə (SD) öz xidmətlərini təklif edirdilər. Əvəzində isə mənfur ermənilər köçəri hesab etdikləri Azərbaycanlıların əzəli - əbədi torpaqları üzərində süni yolla qurulmuş Ermənistan SSR - in coğrafi ərazilərini genişləndirmək istəyirdilər." (səh.39). Sonra kitabda müharibə zamanı Dronun və Njdenin başçılıq etdikləri erməni SS birləşmələrinin, o cümlədən 809 - cu erməni piyada batalyonunun hitlerçilərin tərəfində bizə qarşı vuruşması barədə çoxlu arxiv sənədlərinin mövcud olmasından bəhs edilir. Təsəvvür edin ki, müharibənin sonunda hərbi cani kimi Sovet əks - kəşfiyyatı tərəfindən ələ keçirilən və sonra da Sovet hərbi tribunal tərəfindən uzun müddətli cəzaya məhkum edilən və sonra da həbsdə gəbərən Njde kimi bir cəllada, insan qəssabına 2016 - cı il mayın 16 - da ermənilər Yerevanın ortasında altı metrlik heykəl ucaldıblar. Bütün bunlar bir daha sübut edir ki, indiki Ermənistanın iqtidarında təmsil olunan cinayətkar hərbi xunta işğalı, terroru , insan hüquqlarına qəsd etməyi dövlət səviyyəsində təbliğ etməklə axıra qədər israrlıdır.




1941 - ci il iyun ayının 22 - də, səhər saat 4 - də 120 diviziyadan ibarət olan alman - faşist qoşunları müharibə elan etmədən 930 kilometrlik bir cəbhə xətti boyunca bizim də o zamankı vətənimiz olan Sovet İttifaqının üzərinə hücum etdi. Bakıda, Sabunçu qəsəbəsində, alman neftçisi ailəsində anadan olub 4 yaşında ikən ailəsi ilə birgə Almaniyaya qayıdan, Birinci Dünya müharisində iştirak edib üç dəfə yaralanan, əqidəli kommunist kimi repressiyalara məruz qaldığı üçün 1929 - cu ildə Sovet İttifaqına köçüb bu ölkənin vətəndaşlığını qəbul edən, sonra Sovet hərbi kəşfiyyatı tərəfindən işə cəlb edilən, 1933-cü ildə nasist partiyasına qəbul olunub alman jurnalisti kimi Yaponiyaya gələn, əsil həqiqətdə isə Sovet kəşfiyyatçısı kimi fəaliyyət göstərib çox qiymətli məlumatlar toplamaqla gizli antifaşist təbəqə yaradan Rixard Zorge bu dəhşətli hücum ərəfəsində Moskvaya xəbər göndərdi ki, iyunun 22 - də Hitler qəfildən üstünüzə hücuma keçəcək. Ancaq xisləti etibarı ilə heç də Hitlerdən geri qalmayan dünya tiranı, qaniçən cəllad Stalin bu cür vacib informasiyanı maymaqcasına qulaqardına vurub müdafiə tədbirləri görmədi və müharibənin başladığı ilk günlərdə onun cahilliyi üzündən ölkəyə yüz milyardlarla manatlıq ziyan dəydi. Faşistlərin hücumu o qədər qəfil və gözlənilməz oldu ki, ilk saatlarda bütöv ordu birləşmələrimiz azuqə və hərbi sursatları ilə mühasirəyə düşdü, ayrı - ayrı şəhərlərin, kəndlərin minlərlə əhalisi nə baş verdiyini dərk etməyə macal tapmadan yüzlərlə təyyarədən atılan bombaların yaratdığı dəhşətin içində həlak oldular.

Mən yarım əsrdən artıqdır ki, həyatda baş verən hadisələrə şüurlu surətdə yanaşıb, bunlardan obyektiv məntiqi nəticə çıxarmağa çalışıram. Bəzən eyni məzmunlu yuxunu təkrar - təkrar görürəm, bəzən də heç vaxt görmədiyim tarixi hadisəni təkrar - təkrar gözlərim önündə canlandırıb haldan - hala düşürəm. Hadisə deyəndə daha çox təsəvvürümdə 1941 - ci il 22 iyun gününün doğurduğu dəhşəti canlandırmağa çalışıram. Çalışıram, çünki özüm bu tarixdən 16 il bir ay sonra dünyaya gəlmişəm. Təsəvvür edin ki, həmin gün o vaxt Vətənimiz sayılan nəhəng bir məmləkətə qəfil basqın edildiyi üçün on milyonlarla insan dərdə, qəmə, kədərə batdı, qadınlar səs - səsə verib ağlaşmağa, kişilər bir yerə toplaşıb vəziyyətdən çıxış yollarını müzakirə etməyə, uşaqlar isə nə baş verdiyini dərk edə bilmədikləri üçün ürkək baxışlarla maddım - maddım ətrafı, insanları seyr etməyə başladıldr. Həmin saatlarda düşmənin təyyarələri, tankları və digər motorlu texnikaları anbaan, böyük sürətlə o zamankı Vətənimizin içərilərinə doğru yeriyirdi. İlk günlər mənfur düşmən demək olar ki, ciddi manıə hiss etmədən irəliləyirdi və arxada yaşayan hər bir insan yaxınlaşmaqda olan yağıların doğurduğu vahimədən üşənərək ciddi qorxu və təlaş hissi keçirirdi. Bu cür mənzərələri təsəvvürümdə canlandıra - canlandıra gəlib on doqquz yaşıma yetişdim və həmin vaxt yazdığım "Səhər" adlı şeirimdə bu misraları qələmə aldım:

Səhərlər gətirdi hər cür xəbəri,
Könüllər mülkünün məbədi oldu.
Qırx birinci ilin iyun səhəri
Bütün səhərlərin ən bədi oldu.

Sonrakı illərdə keçirilən tədbirlərdə dəfələrlə bu şeiri oxudum və məhz bu misralara görə hər dəfə alqışlarla qarşılandım.

İkinci Dünya müharibəsi zamanı faşizm adlı qara kabus qorxunc, yoluxucu xəstəlik kimi, vəba, yaxud taun kimi bütün ölkələri və xalqları əsarət altına alıb istismar etmək, xoşuna gələnləri yaşatmaq, xoşuna gəlməyənləri isə yaratdıqları çoxsaylı ölüm düşərgələrində yandırıb külə döndərmək və ya müxtəlif iyrənc üsullarla məhv etmək yolunu tutmtşdu. Bu misraları qələmə aldığım gün 2020 - ci il aprelin 18 - idir. Bu gün bütün yer üzünün insanları Üçüncü Dünya müharibəsinin vhiməsi içində yaşayır və gözə görünməyən koronovirus adlı xəstəlik düşmən cildinə girərək hər gün dünyanın ayrı - ayrı ölkələrində minlərlə insanın canını almaqdadır. İlk dəfədir ki, dünyanın nəhəng meqapolisləri büsbütün boşalıb, küçələr, parklar, xiyabanlar insan üzünə möhtacdır, hətta oturacaqlar da insan nəfəsi üçün darıxıb. Yüz milyonlarla insan bu qlobal pandemiyanın, bu dəhşətli yoluxucu xəstəliyin qurbanına çevrilməmək üçün başqa insanlarla bacardıqca az ünsiyyətdə olmağa, zəruri ara məsafəsi saxlamağa, karantin müddətində evdən çıxmamağa, bacardığı qədərincə ev şəraitində yaşayıb çalışmağa məhkumdur.

*(Davamı 9-cu səhifədə)*

# BÖYÜK QƏLƏBƏNİN AÇARI

*(Əvvəli 8-ci səhifədə)*

Bəşəriyyət bu gün gözəgörünməz düşmənlə gedən ağır müharibənin pik həddinə çatacağı, sonra isə səngimə dövrünə qədəm qoyacağı məqamı həsrətlə gözləməkdədir. Ola bilsin ki, dünya bu savaşdan daha az insan itkisi ilə canını qurtarsın, o da mümkündür ki, maddi zərər heç də İkinci Cahan savaşından az olmasın. Çünki indinin özündə dəyən maddi ziyan on trilyonlarla dollar civarında dolaşmaqdadır.

Gəlin, bir daha fikrimizi cəmləşdirək və qələmə aldığımız mövzunun mahiyyətinə bir az da dərindən nüfuz etməyə çalışaq. Arxiv sənədləri də təkzibedilməz faktlarla sübuta yetirir ki, Bakı nefti Böyük Vətən müharibəsi zamanı Sovet İttifaqının Hitlerin hərb maşınını darmadağın edib sıradan çıxarmasında, düşməni Berlinə kimi qovub diz çökdürməsində həlledici rol oynayıb. SSRİ - nin bu müharibədə müttəfiqləri olmuş ABŞ və Böyük Britaniya dəfələrlə vəd versə də müharibənin sonuna kimi 2 - ci cəbhəni açmağa tələsmədilər. 1942 - ci ildə Hitler əlavə 6 motoatıcı diviziyanı Cənub cəbhəsinə yönəldib çox zəhmli bir qüvvə ilə Bakı üzərinə hücuma keçəndə Stalin Çörçilldən kömək istədi. Amma Çörçill Yaxın Şərqdəki diviziyalarını qırğına vermək istəmədiyi üçün bu təklifdən müxtəlif bəhanələrlə boyun qaçırdı və utanmaz halda dedi ki, biz dar məqam yaranarsa, yəni, faşistlər Bakıya lap yaxınlaşarsa, şəhəri bombalamaqla, mədənlərə mərmi yağdırıb yandırmaqla sizə kömək etməyə hazırıq.



Yalançı müttəfiqlərin dar məqamda bir işə yaramadığını görən Stalin öz əhalisini kütləvi şəkildə cəbhəyə göndərib düşmənin yolunda ətdən hasar çəkməklə yeni tarixi cinayətlərə imza atdı. Təsəvvür edin ki, faşistlər İtaliya və Türkiyə istisna olmaqla bütün Avropa ölkələrinə qarşı vuruşduqları halda ümumi insan itkiləri Sovet İttifaqından iki dəfə az oldu. Bu cür rüsvayçı hallar da , biabırçı faktlar da Stalin kimi despotun, tiranın, qaniçənin sürtülmüş vicdanına yazılmalıdır. Faşistlərin dünya ağalığı iddiasına düşüb Almaniyanın daxili ehtiyatlarını hərbi sənaye sahələrinin gücləndirilməsinə cəlb etdiyi bir məqamda Stalin repressiya tədbirlərini gücləndirərək ölkə daxilindəki layiqli ziyalıları və peşəkar hərbçiləri qırmaqla məşğul idi. Zənnimizcə, son bir əsrdə Azərbaycan xalqının taleyinə dörd nəhəng siyasi xadim, görkəmli rəhbər düşüb. Bunlar M.Ə.Rəsulzadə, N.Nərimanov, M.C.Bağırov və H.Əliyevdir. Həmin şəxslərdən biri olan M.C.Bağırov Hitlerlə eyni vaxtda hakimiyyət başına gəlməsinə baxmayaraq, ağır müharibə illərində xalqına ləyaqətlə rəhbərlik etməyi, insanlarda faşizmə qarşı barışmaz nifrət duyğusu aşılamağı, onları böyük Qələbəyə sarsılmaz inam ruhunda tərbiyə etməyi bacardı. Məhz onun təşkilatçılığı sayəsində yeni texniki avadanlıqlar olmadan, daxili ehtiyatlar hesabına neft hasilatı sahəsində ilbəil artıma nail olundu, göydə uğuldayan təyyarələr, yerdə nərildəyən tanklar, cəbhəyə yük, adam, silah, ərzaq daşıyan avtomobillər və digər texniki vasitələr məhz Bakı neftinin sayəsində hərəkətə gəldiyi üçün günbəgün irəliləyən ordumuz amansız düşmənə qan uddururdu. Əvvəlki Cahan savaşından fərqli olaraq, bu müharibə daha çox duru yanacaqla işləyən texnikanın, nərildəyən motorların, maşın və mexanizmlərin savaşına bənzəyirdi. Müharibə illərində faşistlərin duru yanacaq aldığı yeganə mənbə Rumıniya idi. Bütün Avropa ölkələrini işğal etməklə qarşısında diz çökdürən, bu ölkələrin bütün daxili resurslarını qamarlayıb murdar planların icrasına, o cümlədən bəşəriyyətin məhvinə yönəldən Hitler faşizmi hətta sintetik yolla benzin istehsal etsə də bütün müharibə boyunca ciddi şəkildə yanacaq qıtlığı ilə üzləşmiş oldu. Böyük Qələbəyə bir neçə ay qalmış Rumıniya da müzəffər Sovet qoşunları tərəfindən azad olundu, nəticədə isə faşistlər sonuncu yanacaq mənbəyindən də məhrum edildi. Bundan sonra faşistlər çevik nəqliyyat növü kimi daha çox atlardan, at arabalarından istifadə etməyə, benzini çatmayan avtomodilləri isə öküzlərlə dartıb aparmağa başladılar. Amma Sovet qoşunları məhz Bakı neftinin sayəsində bütün müharibə illəri boyunca yanacaq sarıdan elə ciddi bir korluq çəkmədi və çox böyük qələbələr qazandı. Stalinqrad döyüşü zamanı ordumuz düşmənin 220 minlik qoşununu mühasirəyə aldı, marşal Paulyus başda olmaqla 90 mindən artıq faşist əsir alındı, qalanları isə məhv edildi. Sonra Kursk çölündə tankların savaşı oldu və bu tarixi döyüşdə düşmənin yüzlərlə tankı məhv edilib sıradan çıxarıldı. Sovet ordusu çox zəhmli bir düşmənə qarşı vuruşmağa məhkum edilmişdi və bu zəhmli düşmən az qala dünyanın yarısını ələ keçirdiyi üçün Sovet İttifaqını tutduqdan sonra Hindistana hücum etmək xülyasında idi. Bəzən vəziyyət o dərəcədə gərginləşirdi ki, vuruşan iki tərəfin taleyi az qala bir tükdən asılı olurdu. Təsəvvür edin ki, bir arada Şimali Qafqaza soxulan düşmən müvəqqəti də olsa neftlə zəngin olan Qroznını və onun ətrafındakı yataqları işğal edə bildi. Volqa çayı ilə neft daşıyan barjları fasiləsiz şəkildə bombalayan alman təyyarələri elə dəhşətli bir mənzərə yaradırdı ki, neftin alışıb - yanması üzündən bütün çayın səthi boyunca alov axırdı. Stalinin göstərişi ilə marşal Budyonnı və SSRİ Neft Sənayesi Nazirinin müavini, həmyerlimiz Nikolay Konstantinoviç Baybakov ölkənin Cənub bölgəsinə göndərildi və işğal ərəfəsində Qroznı ilə Maykop diyarındakı bütün neft buruqları partladıldı, dolduruldu və dağıdıldı. Axı, düşmən o yataqları işlək halda ələ keçirsəydi, bizim neftin odu - atəşi ilə sonradan özümüzü yandırıb - yaxardı. Müharibə dövründə üz - üzə dayanıb vuruşan qüvvələr bacardıqca bir - birini daha çox gücdən - taqətdən salmağa çalışır. Çünki bu həm də var olub həyatda qalmaq ideyasına xidmət edən ölüm - dirim savaşıdır. Qroznını ələ keçirdikdən sonra düşmən bütün qüvvələrini Bakını və onun neftini ələ keçirmək üçün səfərbər etməyə başladı. Bundan sonra Stalin yenidən Baybakovu yanına çağırıb dedi ki; səni bu dəfə Bakıya göndərirəm. Düşmən Bakıya girərsə, o ərəfədə bütün neft yataqlarını məhv etmək, partlatmaq gərəkdir. Əgər düşmən Bakıya yaxın düşə bilməsə, neft yataqlarının işi və mühafizəsi ən yüksək şəkildə təşkil edilməlidir. Əks təqdirdə səni özüm güllələyəcəyəm. Təbii ki, belə ekstremal şəraitdə bu ən düzgün və obyektiv qərar idi. O zamankı Sovetlər Birliyi yaxşı da, pis də olsa bizim Vətənimiz idi və bu Birlik alman faşizmi kimi dəhşətli qüvvəyə qarşı təkbətək vuruşub qalib gəldi. Üzdəniraq müttəfiqlərdən İngiltərə müharibənin əvvəlində özünün mənafeləri xatirinə Almaniyanın neft, yanacaq anbarlarını bombalayıb sıradan çıxardı, ABŞ isə Almaniyanın müttəfiqi olan Yaponiyaya atom bombası dərsi verməklə, əslində o ərəfədə qarşı tərəfin onun hərbi dəniz donanmasına tutduğu divanın qisasını alırdı. Müharibənin ilk aylarından etibarən bütün digər sahələrdə olduğu kimi Neft Sənayesi sahəsində də kişiləri kütləvi şəkildə cəbhəyə aparırdılar, bu səbəbdən də arxa cəbhədəki saysız - hesabsız işlərin bütün ağırlığı qadınların, qocaların, bir də ki, hələ sümüyü bərkiməmiş yeniyetmələrin üzərinə düşürdü. Mədənlərdə çalışan fədakar qadınlar hətta buruq - qazma işlərinə də cəlb olunurdu. Qadınlar Neft Sənayesində rəhbər vəzifələrə də irəli çəkilirdi. Bu barədə kitabın 64 - cü səhifəsində oxuyuruq: "Müharibə illərində Abşeron yarımadasındakı iri neft mədənlərinə Mədinə Vəzirova, Suğra Qayıbova, Səkinə Quliyeva, Antonina Bakulina, Anna Pleşko, Sofiya Kryuçkina kimi peşəkar kadrlar rəhbərlik edirdi. Bu qadınların öz çiyinlərində hansı ağır yükü daşıdıqlarını hətta təsəvvürə gətirmək belə çətindir." Sözümüzün canı budur ki, İkinci Dünya nüharibəsi zamanı Bakı nefti tək Azərbaycanın və o zamankı Sovetlər Birliyinin deyil, həm də bütün dünyanın taleyini müəyyənləşdirməkdə mühüm rol oyndı. Beləliklə, biz bu yazının adını "Bakı nefti dünyanı xilas etdi" də qoya bilərdik. Faşistlərin Qafqaz istiqamətindəki sürətli hücumu Fransa və İngiltərəni də narahat edirdi. Onlar yaxşı başa düşürdü ki, Bakı nefti kimdə olsa, Qələbə də onunla olacaq. Hitler Bakını və onun neftini ələ keçirəcəyi təqdirdə həm Sovetlər Birliyini, həm də müharibə apardığı ölkələri asanlıqla diz çökdürə bilərdi. Bu səbəbdən də Bakının tutulması onların maraqları ilə daban - dabana zidd idi. Tez - tez Moskvaya, Stalinə kəşfiyyat xarakterli məlumatlar ötürüb xəbər verirdilər ki, Hitler Bakı neftini tutmaq üçün xüsusi canfəşanlıq göstərir və bu murdar niyyətinə çatmaq üçün çox ciddi planlara malikdir. Bu məşhur süjet dönə - dönə ekranlarda nümayiş olunub: üzərində Sovetlərin xəritəsi çəkilmiş tortdan Bakıya aid olan hissəni qulbeçələri kəsib boşqaba qoyduqdan sonra Hitlerə təqdim edirlər. O, tortu yeyib bitirsə də Bakı və Bakı nefti ilə bağlı olan bütün arzuları daşa, qurğuşuna dönüb boğazında qalır. Lakin o, bir gün də olsa bu murdar niyyətindən əl çəkmək istəmir. Təsəvvür edin ki, Stalinqrad döyüşü zamanı feldmarşal Paulyusun 220 minlik ordusu mühasirə halqasında qalarkən onları xilas etmək istəyən Manşteyn Hitlerə yalvarır ki, Qafqaz istiqamətində olan ordunun bir hissəsini geri çəkib mühasirəni yarmağa icazə versin. Amma Hitler o boyda ordunun mühasirədə qalıb məhv olmasına razı olsa da, Qafqazdakı ordunun köməyə gəlməsinə etiraz edib deyir: "Əgər biz Qafqaz neftini almasaq, müharibəni uduzmuşuq". Bundan sonra hitlerçilər xüsusi təxribatçı dəstələr yaradıb paraşütlə Bakıya tullamağa başlayırlar.

*(Davamı var)*

***Bayram AFURCALI,***
***publisist-fotoqraf***